

Türkiyəli müğənni Kutsi 5 aylıq hamilə həyat yoldaşı Sinəm Bayraktutarı tərk edib.

ANS TV-nin məlumatına görə, müğənni qanuni həyat yoldaşını keçmiş sevgilisi, “Huzur sokağı” serialında tanış olduğu Feyza Çıpana görə ataraq onun yanına dönüb.

Bu Kutsinin həyat yoldaşına vurduğu ilk xəyanət zərbəsi deyil. Daha əvvəl də xanımına aktrisa ilə xəyanət edən Kutsi sonradan peşman olduğunu söyləmiş və ailəsinin yanına geri dönmüşdü. Lakin hamilə Sinəm Bayraktutar ötən gün evə gedərkən qarşılaşdığı mənzərədən şoka düşüb. O, ərinin bütün əşyalarını yığaraq sevgilisinin yanına qayıtdığını görüb.

Bu xəyanətdən dərin sarsıntı keçirən Sinəm qəzetə açıqlama verib. “Kutsi doğulacaq körpəsini və qızımızı tərk edib sevgilisinə döndü. Məni çətin vəziyyətdə qoydu, üstəlik borc içində idik. Daha dayana bilmirəm. Uşaqlarıma özüm baxacam. Kutsini də, Feyzanı da Allaha tapşırıram. Qoy gedib xoşbəxt olsunlar” deyib.

Qeyd edək ki, müğənninin Ceylin adlı bir qızı var.